UOT 327
https://doi.org/10.30546/3006-0346.2025.3.87.512

# MÜASİR TÜRKİYƏNİN REAL POLİTİK XARİCİ SİYASƏTİ

**ZÜMRÜD MƏLİKOVA**
*Bakı Slavyan Universitetinin dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: zumrud.melik@gmail.com*
*ORCİD İD: 0009-0001-1282-888X*

## Giriş

"Ərəb baharı" adlanan geosiyasi proses Tunisdə başlayıb qısa zamanda Böyük Yaxın Şərq regionunu əhatə etdi və inqilabi dəyişikliklərə gətirib çıxardı. Tunis, Misir, Liviyada avtoritar hakimiyyətlərin dəyişilməsi, regionun digər ölkələrində böhran və qarşıdurmalara yol açdı. Suriyada Bəşər Əsəd hakimiyyətinə qarşı çıxan qüvvələrlə hakimiyyət arasında müharibə xarici aktorların müdaxiləsi ilə regiondakı geosiyasi rəqabəti kəskinləşdirdi. Bundan əlavə yeni təhlükəsizlik təhdidlərinin meydana çıxması region ölkələri, o cümlədən, Türkiyə üçün əlavə problemlər yaratdı. 2015-ci ilin sonunda Rusiyanın Suriyaya hərbi müdaxiləsi, 2016-cı ilin sonunda Donald Trampın ABŞ prezidenti seçilməsi, onun Obamanın mirasını ləğv etmək səylərini davam etdirməsi, Çinin Yaxın Şərq regionunda nüfuzunun artması, şiə və sünni güc blokları arasında artan geosiyasi rəqabət və Türkiyənin təhlükəsizliyinə yeni təhdidlərin meydana çıxması Türkiyənin xarici siyasətində real politik canlanmaya səbəb oldu. Bu dövrdə Türkiyənin Yaxın Şərqdə manevr imkanlarının durmadan azaldığı görünürdü, belə ki, digər regional və qeyri-regional güclər Yaxın Şərqdə möhkəmlənmək yolunda gedişatı öz xeyirlərinə formalaşdırmaq səylərini artırdılar. Qlobal siyasətdə Qərbin dünya hegemonluğunun davamlı enişi kontekstində Türkiyə güclənməkdə olan qeyri-qərb dövlətlərlə səmimi münasibətlər qurmaq üçün səylərini artırdı. Bu dövrdə Qərb dövlətləri qeyri-qərb güclərinin yüksəlişini təhdid hesab etdiklərini öz strateji sənədlərində bəyan etdilər. Son 10 ildə qəbul edilmiş strateji sənədlərdə ənənəvi təhlükəsizliklə bağlı təhdidlərin dirçəlməsi, eləcə də dünya miqyasında qeyri-liberal avtoritarizmin yaranması ilə mübarizənin bəzi yolları təklif olunurdu [1;3;5].

Məqalənin əsas məqsədi Yaxın Şərq regionunda baş verən hadisələrin Türkiyənin xarici siyasətinə təsirini, geosiyasi maraqlarını təmin etmək istiqamətində regional siyasətinə struktur realizm və neoklassik realizm nəzəriyyəsi kontekstində baxmaqdır. Eləcə də, son 10 ildə beynəlxalq düzənin strukturunda baş verən dəyişikliklərin Türkiyənin xarici siyasətinin təkamülünə təsiri, regionda geosiyasi rəqabətin kəskinləşməsi fonunda türk xarici siyasət kursunun defensive realizmə keçməsi səbəblərini araşdırmaqdır.

## Srtuktur realizm və neoklassik realizm kontekstində Türkiyənin xarici siyasəti

Dünya xaotik bir düzəndə, qüvvələr balansında qeyri-müəyyənliyin hökm sürdüyü, sülh və sabitliyin bir çox regionlarda, xüsusilə, yaşadığımız mühüm geosiyasi məkanda baş verən böhran və münaqişələrlə təhdid edildiyi, qlobal və regional aktorlar arasında siyasi və iqtisadi qarşıdurmanın, geosiyasi rəqabətin kəskinləşdiyi, hətta alyansların mümkün dəyişə biləcəyi, sistem yaradan bir dövrü yaşayır. Belə təlatümlü bir dövrdə Türkiyənin dövlət maraqlarına uyğun siyasət yürütməsi, formalaşmaqda olan yeni dünya düzənində öz yerini müəyyənləşdirməsi vacib əhəmiyyət kəsb edir.

Son 20 ildə hakimiyətdə olan Ədalət və İnkişaf partiyasının (Əİ partiyası) xarici siyasəti, əvvəl ABŞ-ın rəhbərlik etdiyi Qərb dövlətlərinin liberal qaydalarına və o dövrün reallıqlarına əsasən yürüdülsə də, sonra dünya düzəninin və qüvvələr nisbətinin dəyişməsi fonunda Türkiyə fərqli xarici siyasət davranışı nümayiş etdirdi. Əİ partiyasının siyasi, xüsusən hərbi-siyasi əlaqələrdə hesablamaları, hakim elitanın geosiyasi ambisiyaları, seçkilərdə davamlı qələbə qazanması, əvvəl baş nazir, sonra prezident vəzifəsində R.T.Ərdoğanın güclü idarəçiliyi Türkiyənin regional və sistemli səviyyədə baş verən hadisələrə münasibət bildirməsinə böyük təsir göstərdi. Bu dövrdə digər siyasi partiyanın iqtidarda olması Türkiyənin prioritetlərinin və xarici siyasi davranışının eyni olacağı ilə bağlı ehtimalları sual altına qoyur. Neoklassik realistlərin görüşünə görə, bu dövrdə müxalifətdə olan siyasi partiyaların iqtidara gəlməsi halında Türkiyənin xarici mühitə təsiri fərqli olacaqdı [2,132]. Belə ki, Türkiyədəki siyasi partiyaların fərqli siyasi dəyərləri və geosiyasi təşəvvürləri mövcuddur. Lakin bu fikir də hipotetikdir, fərqli yanaşmalar irəli sürülə bilər.

Struktur realizmə görə, beynəlxalq düzən

birqütblülükdən çoxqütblülüyə dönüşdükcə, dövlətlərin, xüsusən də orta və kiçik dövlətlərin manevr qabiliyyəti artır. Keçid dövrləri dövlətlərə xarici siyasətlərində daha çox imkanlar yaradır. Mövcud qlobal hegemonun üstünlüyü artmaqda olan potensial hegemon dövlətlər tərəfindən mübahisələndirildiyi üçün qlobal miqyasda Türkiyə kimi regional güclərin manevr imkanları artırdı [4,128]. Türkiyənin xarici siyasət gündəliyini gücləndirən xarici hadisələr kimi B.Obama administrasiyanın "ixtisar" və "millətlər evinin quruculuğu" strategiyaları göstərilə bilər. Avropa İttifaqında (Aİ) daxili böhranlar və qeyri-qərb güclərinin, xüsusən də, Çin və Rusiyanın tədricən yüksəlişi, sistem və regional səviyyədə boşluq yaratdı. Türkiyə xarici siyasətində bundan istifadə etdi. Bu səbəbdən Türkiyə "Ərəb baharı" adlanan geosiyasi dəyişikliklər zamanı Yaxın Şərqdə bir "nizam qurucu rolu"nu asanlıqla qəbul edə bildi.

**Türkiyənin Yaxın Şərq siyasətində realizmə qayıdış**

2015-2018-ci illərdə formalaşmaqda olan çoxqütblü dünya düzənində Türkiyə geosiyasi maraqlarına əsaslanan xarici siyasətə qayıtdı. Türkiyə 2015-ci ilin əvvəlindən etibarən Yaxın Şərqdə, xüsusən də Suriyada baş verən hadisələrin gedişatından məyus olduğu üçün onun xarici siyasətində realizmə qayıdış hiss olundu.Türkiyənin real politik siyasət yürütməsinə həm daxili, həm də xarici amillər təsir göstərdi. Bunlara ilk olaraq, Türkiyənin daxili sabitliyinin pozulmasına, hakim siyasi elitanın (Əİ partiyasının) idarəçiliyinə son verilməsinə yönəlmiş tədbirlər və cəhdləri (həm daxili, həm xarici qüvvələrin dəstəyi ilə) göstərmək olar. İkincisi, Yaxın Şərq regionunda geosiyasi rəqabətdə olan ənənəvi aktorların (regional və qeyri-regional dövlətlər olmasından asılı olmayaraq) və yeni qoşulan güclərin əvvəlki siyasətlərindən fərqli və daha inamlı xarici, iqtisadi və hərbi fəaliyyətləri regionda vəziyyətin gərginləşməsinə, dolayısı ilə Türkiyənin təhlükəsizlik problemlərinin əhəmiyyətli artmasına gətirib çıxardı. Bundan əlavə, həm regionda, həm də dünyada gedən proseslər, hadisələr Türkiyənin Yaxın Şərq regionunda yeritdiyi siyasətinin xarakterinin dəyişməsinə təsir göstərdi. Yeni Osmançılıq siyasətinin regionda istənilən nəticəni verməməsi Türkiyənin xarici siyasətində defensive realizm, bəzən isə offensive realizmə əsaslanan xarici siyasət nümayiş etdirməsinə səbəb oldu. Bu özünü bir neçə istiqamətdə, xüsusən siyasi-iqtisadi əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, təhlükəsizlik problemlərinin həlli və hərbi-texniki potensialın gücləndirilməsi və modernləşdirilməsində göstərdi.

ABŞ prezidenti Barak Obama dövründə Türkiyənin 21-ci əsrin ilk onilliyində artmış özgüvəni üç sistemli hadisənin baş verməsi ilə tədricən sona çatdı. Birincisi, D.Tramp seçki kampaniyası zamanı və prezident vəzifəsində olduğu ilk ildə Obama administrasiyasını Yaxın Şərqdə Amerika liderliyini dekonstruksiya etməkdə ciddi şəkildə ittiham etdi. Trampın fikrincə, Obamanın "məsuliyyəti regional aktorlara həvalə etmək" siyasəti digər oyunçuları bölgədə hadisələri diktə etməyə cəsarətləndi. Trampın birinci administrasiyası dövründə (2017-2021) ABŞ Yaxın Şərqdə, xüsusilə, İŞİD-ı məğlub etmək üçün daha iddialı bir rol oynamağa, Suriyanın şimalında Suriya Demokratik Qüvvələrini (PYD) strateji müttəfiq kimi dəstəkləməyə, Rusiya və İranın bölgədəki nüfuzunun qarşısını almağa çalışdı. Obama administrasiyasının Suriyada Bəşər Əsəd əleyhinə olan müxalifət qruplarına böyük dəstək verməməsi Türkiyənin maraqlarına cavab vermədi. Tramp administrasiyasının İslam Dövlətini məğlub etmək üçün Suriyanın şimalındakı PKK-ya bağlı kürd qruplarına hərbi yardımı davam etdirməsi və digər amillər Türkiyənin təhlükəsizlik problemlərini gərginləşdirdi [6]. İkincisi, Rusiyanın 2015-ci ilin sonlarında Suriyaya hərbi müdaxiləsi, ən əsası Əsəd rejiminə bəzi itirilmiş əraziləri geri almağa və beynəlxalq legitimlik qazanmağa kömək etməsi regionda təhlükəsizlik və siyasi dinamikanı kökündən dəyişdi. Üçüncüsü, İraqın Mosul və Suriyanın Rakka başda olmaqla, İŞİD-ın nəzarətində olan ərazilərin geri alınmasından sonra İranın Əsəd rejimini gücləndirmək səyləri yeni təkan aldı. Tramp administrasiyasının 2015-ci ilin yayında İranla imzalanan nüvə müqaviləsini ləğv etmək və İran rejimini daha da təcrid etmək əzmi ilə üzləşən rəsmi Tehran, ABŞ-ın hücum siyasətinin qarşısını almaq üçün əvvəlkindən daha iddialı və daha cəsarətli regional siyasət yürütmək qərarına gəldi.

Regionda təhlükəsizlik mühitinin pisləşməsi və onun mənfi nəticələrinin Türkiyənin daxili sabitliyi üçün təhdid yaratması səbəbindən hakim siyasi elita getdikcə daha çox ənənəvi təhlükəsizlik problemlərinin prioritetliyinə əsaslanan yeni xarici siyasət xətti seçdilər. 2016-cı ilin yazında baş nazi-

ri vəzifəsində Əhməd Davudoğlunun Binəli Yıldırımla əvəzlənməsi Türkiyənin realist xarici siyasət mövqeyi tutduğunu göstərdi. Bu siyasətin məntiqi Türkiyənin düşmənlərinin sayını azaltmaq, dostlarının sayını artırmaq idi. Türkiyənin daxili dəyərlərinə uyğun olaraq regionun yenidən qurulmasına yardım göstərmək üçün ideoloji səyləri tədricən öz yerini Türkiyənin ərazi bütövlüyünün qorunması ilə bağlı daha realist düşüncəyə və cənubda ənənəvi təhlükəsizlik problemlərinin yenidən ortaya çıxması fonunda ictimai birliyin təmin olunmasına verdi.

Türkiyənin realpolitik siyasətə keçidi daxili, xüsusən də xarici qüvvələrin maraqlarına cavab verməyincə, 2016-cı ilin iyulunda "Yurdda sülh şurası"nın Türkiyənin 65-ci hökumətinə qarşı uğursuz dövlət çevrilişinə cəhdi oldu. 2016-cı il 15-16 iyulda baş vermiş dövlət çevrilişinə cəhddən sonra Türkiyə liderləri təhlükəsizlik məsələlərini daxili və xarici siyasətlərinin mərkəzinə qoydular. Ənənəvi təhlükəsizlik problemlərinin gələcək siyasiləşdirilməsi yolu ilə həlli təcrübəsi, bir çox cəbhələrdə yenidən təhlükəsizlik (ingiliscə: resecuritization) təcrübəsi ilə əvəz edildi. Mühasirə zehniyyətinin canlanması Türkiyənin xarici əlaqələrində "öncə təhlükəsizlik" yanaşmasına səbəb oldu. Bir ölkənin Türkiyənin dostu və ya düşməni olması məsələsi getdikcə daha çox Türkiyənin terror təhdidlərinin bir çox mənbələrinə (məsələn, Suriyadakı PKK/PYD qüvvələri, ölkənin daxilində və xaricində FETÖ terror təşkilatı, İslam Dövləti və solçu terror təşkilatı DHKP-K) qarşı apardığı müharibəyə onun dəstək verməsi və ya verməməsi əsasında həll olunurdu.

ABŞ ilə münasibətlərin pisləşməsi və Türkiyənin Aİ-yə üzvlük perspektivlərinin azalması fonunda Türkiyə hakimiyyəti son 10 ildə Rusiya və Çinlə münasibətləri yaxşılaşdırmaq üçün daha çox sərmayə və enerji sərf etdi. Türkiyənin Rusiyanın başçılıq etdiyi Avrasiya İqtisadi İttifaqına, yoxsa Çinin başçılıq etdiyi Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması ilə bağlı debatlar fəallaşdı. Türkiyə Qərb dünyasından kənarda qaldığını hiss etdikcə güclənən qeyri-qərb dövlətlərə bir o qədər yaxınlaşırdı.

2015-ci ilin sentyabrında Rusiyanın Suriyaya hərbi müdaxiləsi ilə yanaşı, ABŞ-ın bu ölkədəki antihökumət qüvvələrini dəstəkləməkdən israrlı şəkildə imtina etməsi Türkiyənin təhlükəsizlik sferasında düşüncəsində iki konkret nəticəyə gətirdi. Birincisi, rəsmi Ankara anladı ki, Rusiyanın Suriyadakı hərbi mövcudluğu fonunda Türkiyənin Yaxın Şərqdəki hadisələrə təsiri və regionu yenidən formalaşdırmağa kömək etmək qabiliyyəti artıq əhəmiyyətli dərəcədə zəifləyib. Rusiya və İranın Suriyada B.Əsədə verdiyi dəstək rejimin hakimiyyətdə qalma imkanlarını gücləndirdi. İkincisi, Rusiya ilə daha sıx münasibətlər o dövrdə Suriyanın şimalındakı PKK-ya bağlı kürd qruplarına qalib gəlmək üçün həyati əhəmiyyət kəsb edirdi. Suriyanın şimalına əvvəl 2016-cı ilin avqustunda, sonra isə 2018-ci ilin yanvarında Türkiyənin hərbi müdaxiləsi Rusiyanın səssiz razılığı olmadan mümkün olmaya bilərdi. Türkiyənin Suriya böhranının diplomatik yollarla həllinə töhfə vermək yolunda Rusiya və İranla sıx əməkdaşlığı (Astana və Soçi prosesləri) Rusiyanın Suriyaya daha qəti şəkildə nüfuz etməsindən sonra intensivləşdi [4,137]. Türkiyənin öz regionunda təhlükəsizlik problemlərinin öhdəsindən birtərəfli təşəbbüslər vasitəsilə gəlmək üçün səylərini artırması xüsusi əhəmiyyət kəsb edirdi. Suriyanın şimalında "Fərat Qalxanı" və "Zeytun Budağı" adı alan 2 hərbi əməliyyatın keçirilməsi nəinki Türkiyənin qərb müttəfiqlərinə olan inamının azaldığının, eləcə də, lazım gəldikdə təkbaşına hərəkət edəcəyinin göstəricisi idi.

2016-cı ilin iyulunda baş vermiş dövlət çevrilişinə cəhddən sonra Türkiyənin qərb dövlətləri ilə münasibətlərinin pisləşməsi baxımından Rusiya ilə əlaqələrin yaxşılaşdırılması əhəmiyyət kəsb edirdi. Qərb güclərinin Türkiyəyə etimadının azalması onu Rusiya ilə daha da yaxınlaşdırdı. Yaxın Şərqdə Qərbin siyasətinin legitimliyini davamlı tənqid edən rəsmi Ankaranın fikrincə, qərb dövlətləri Türkiyənin regionda əhəmiyyətli gücə çevrilməsindən məmnun deyillər. Məhz bunun fonunda Türkiyə hakim elitası dünyanın beşdən böyük olduğunu daha çox dilə gətirdi və Türkiyənin qeyri-qərb güclərlə mümkün qədər səmimi və praqmatik əlaqələri inkişaf etdirmək səylərini artırmalı olduqlarını anladılar. Asiya İnfrastruktur və İnvestisiya Bankına üzv olmaq, Çinlə birgə layihələrin inkişaf etdirilməsinə maraq göstərmək ("Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində), qlobal və regional idarəetmə təşəbbüsləri (məsələn, MİKTA və MINT), Rusiyadan S-400 raketdən müdafiə sistemini almaq və uzaq bölgələrdə hərbi bazalar yaratmaq (məsələn, Qətər və Somali) bu səylərin diqqətəlayiq nümunələridir. Türkiyə Asiyada baş verən hadisələrin yaratdığı imkanlardan və yaranan əməkdaşlıq potensialından daha səmərəli istifadə etmək üçün 2019-cu ilin avqustunda "Yenidən Asiya Təşəbbüs"ünü elan etdi[7]. Təşəbbüs regio-

nal, subregional və ölkəyə xas yanaşmaları inkişaf etdirməklə vahid və hərtərəfli strategiya əsasında Türkiyənin Asiya ölkələri ilə əlaqələrini sistemli və ardıcıl şəkildə gücləndirmək məqsədi daşıyırdı. Bu təşəbbüslə Türkiyə Asiya coğrafiyasında əhəmiyyəti getdikcə artan regional təşkilatlarda və forumlarda daha dinamik iştirakını təmin etməyi hədəfləyirdi.

Hazırda xaotik dünya düzənində Türkiyənin xarici siyasəti daha çox öz regionunda təsirini və təhlükəsizlik problemlərini həll etməyə yönəlib. B.Əsəd rejiminin süqutundan sonra Rusiya hərbi birliklərinin Suriyadan çıxarılması Türkiyəyə əlavə dividendlər verir. Türkiyənin Suriyada yeni siyasi hakimiyyətin qurulmasında rolu danılmazdır. 2025-ci ilin yanvarından ABŞ-da prezident səlahiyyətlərini icra etməyə başlayan D.Trampın qəbul etdiyi qərarlar Qərbin ənənəvi müttəfiqlik münasibətlərini təhlükə altına aldı. Onun Yaxın Şərq siyasəti, Rusiya-Ukrayna müharibəsi ilə bağlı dəyişkən mövqeyi Qərb blokunda antiamerika ritorikanı gücləndirdi. Trampın ABŞ-ı yenidən təkqütblü dünya düzənindəki mövqeyinə qaytarmaq səyləri hal-hazırki dünya düzənində Çin, Rusiya, hətta onun avropalı müttəfiqlərinin, eləcə də regional aktor kimi Türkiyənin maraqlarına cavab vermir. Onu da etiraf etmək lazımdır ki, Rusiya və Çin, Türkiyəyə instrumental perspektivdən yaxınlaşırlar, belə ki, NATO üzrə müttəfiqlər arasında sıxıntılar yaratmağa çalışırlar. Qeyd etmək lazımdır ki, nə Rusiya, nə də Çin tamhüquqlu üzv kimi rəhbərlik etdikləri beynəlxalq təşkilatlara Türkiyəni qəbul etmək istəmirlər. Türkiyə bu və digər qeyri-qərb ölkələri və onların rəhbərlik etdiyi beynəlxalq təşkilatlara yaxınlaşmanı öz səyləri hesabına həyata keçirir. Beləliklə, müasir dövrdə Türkiyənin defensive realizmə əsaslanan xarici siyasəti geosiyasi maraqlarına uyğun həyata keçirilir. Formalaşmaqda olan yeni dünya düzümündə Türkiyənin realpolitik xarici siyasəti davam etdirməsi daha məqsədəuyğun görünür.

## Nəticə

Son 10 ildə beynəlxalq düzənin quruluşundakı dəyişikliklər, eləcə də Türkiyənin daxili dinamikləri onun xarici siyasətində realizmin canlanmasına təsir göstərdi. “Yaxın Şərq mərkəzli”, “Avrasiyaçılıq” və ya “Strateji muxtariyyət” adlandırılmasından asılı olmayaraq əminliklə demək olar ki,Türkiyə artıq öz xarici mühitinə qərbyönlü perspektiv mövqeyindən baxmır.Türkiyənin xarici siyasətində qərbçiliyin zəifləməsini təkcə qlobal siyasətdə qərb üstünlüyünün tədricən azalması ilə əlaqələndirmək olmaz. Son illərdə Türkiyə təhlükəsizliklə bağlı problemlər yaşadı və burada ABŞ-ın son 10 ildə Yaxın Şərq regionundakı siyasəti az rol oynamadı. Əvvəllər Türkiyənin əsas təhlükəsizlik təminatçısı kimi çıxış edən Qərbin obrazı aradan qalxdı. Dünyada gedən geosiyasi proseslər dünya düzəninin pozulmasına birbaşa təsir etdi. Qəzza böhranında bir daha aydın oldu ki, beynəlxalq norma və prinsiplər öz əhəmiyyətini itirib, beynəlxalq sistemdə təcili dəyişikliyə ehtiyac duyulur. Güc balansının Avrasiya dövlətlərinin xeyrinə dəyişməsi, hal-hazırda böyük güclər arasında gedən ticarət müharibəsinin nəticələri yeni dünya düzəninin strukturunu müəyyənləşdirəcəkdir. “Pekin modeli”nin artan cəlbediciliyi, həmçinin Rusiyada özünü qabarıq şəkildə göstərən millətçiliyin yenidən canlanması ABŞ-ın rəhbərlik etdiyi liberal beynəlxalq nizamın normativ dayaqlarını sarsıdıb. Beynəlxalq siyasətdə qeyri-qərb dövlətlərini qəbul etməyə hazır olduğunu nümayiş etdirən dövlətlərə Türkiyəni də aid etmək olar. Yeni dünya düzəninin formalaşmasında qeyri-qərb dövlətlərinin rolunun böyük olacağı şübhə doğurmur. Bu konfiqurasiyada Türkiyənin xarici siyasət davranışı onun regiondakı rolu və yerinə, eyni zamanda müasir Türkiyənin realpolitik siyasətini davam etdirməsi onun regional aktor mövqeyinin güclənməsinə əhəmiyyətli təsir göstərəcəkdir. Nəticə etibarilə, Yaxın Şərq regionunda mövcud təhlükəsizlik problemlərinin həll perspektivləri, geosiyasi rəqabətin nəticələri, dövlətlərin güc balansı yeni dünya düzəninin formalaşması kontekstində müəyyənləşəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. A new era for European Defence and Security. https://commission.europa.eu/priorities-2024-2029/security-and-defence_en*

*2. Gideon Rose. Neoclassical Realism and Theories of Foreign Policy / World Politics, Volume 5, no:1,2008.p. 126-144*

*3. National Security Strategy. October 2022. https://bidenwhitehouse.archives.gov/wp-content/uploads/2022/10/Biden-Harris-Administrations-National-Security-Strategy-10.2022.pdf*

*4. Oğuzlu Tarık. Turkish Foreign Policy in a Changing World Order /All Azimuth, Volume 9, no:1, 2020, p.127-139*

*5. Shared Vision, Common Action: AStronger*

*Europe A Global Strategy for the European Union's Foreign And Security Policy" , June 2016, https://eeas.europa.eu/archives/docs/top_stories/pdf/eugs_review_web.pdf )*

*6. Özkan B. & Han Ahmet. Turkey and United States in Syria: Allies, Frenemies, or Worse? (On Turkey series,September 15, 2017, German Marshall Fund of the United States, Washington DC). http://www.gmfus.*

*org/publications/turkey-and-united-states-syria-allies-frenemies-or-worse.*

*7. Yeniden Asya Girişimi. https://www.mfa.gov.tr/yeniden-asya-girisimi.tr.mfa*

## XÜLASƏ

Məqalə son 10 ildə dünyada qeyri-müəyyənliyin artdığı, az proqnozlaşdırıla bilən, sülh və sabitliyin müxtəlif regionlarda, xüsusən də, mühüm geosiyasi əhəmiyyət kəsb edən Yaxın Şərqdə baş verən böhran və münaqişələlə təhdid edildiyi, müxtəlif səviyyəli qüvvələr arasında siyasi və iqtisadi qarşıdurmanın, geosiyasi rəqabətin getdikcə genişləndiyi, çoxtərəfli və ümumbəşəri dəyərlərin dəyişdiyi dövrdə Türkiyənin xarici siyasətini, əvvəlki hökumətlərdən fərqli xarici siyasət davranışını araşdırır. Məqalədə Türkiyə xarici siyasətinin xarakterinin dəyişməsinə təsir göstərən amillər göstərilməklə yanaşı, bu siyasətin nəzəri əsasları struktur realizm və neoklassik realizm kontekstində, həmçinin dünyada, regionda baş verən proseslərin və hadisələrin, geosiyasi güclərin yerdəyişməsinin Türkiyənin realpolitik siyasətə dönməsinə təsiri araşdırılıb.

**Açar sözlər:** *Türkiyə, xarici siyasət, struktur realizm, geosiyasi maraqlar, realpolitik siyasət.*

### Modern Türkiye's realpolitik foreign policy

**Zumrud Malıkova**

## SUMMARY

The article explores the evolution of Türkiye's foreign policy and its conduct over the past decade, highlighting a departure from the approaches of prior administrations. It discusses the increasing global uncertainty, the unpredictability of international relations, and the threats to peace and stability posed by various crises and conflicts, particularly in the geopolitically significant Middle East. The piece also addresses the growing political and economic confrontations among different powers, the expansion of geopolitical competition, and the shifting nature of multilateral and universal values. The article not only identifies the elements that affect the transformation of Türkiye's foreign policy but also explores the theoretical underpinnings of this policy through the lenses of structural realism and neoclassical realism. Furthermore, it assesses how global and regional developments, along with shifts in geopolitical power, have contributed to Türkiye's re-embrace of realpolitik.

**Keywords:** *Türkiye, foreign policy, structural realism, geopolitical interests, realpolitik politics.*

### Реалполитик во внешней политике современной Турции

**Зумруд Маликова**

## РЕЗЮМЕ

В статье рассматривается внешняя политика и внешнеполитическое поведение Турции, отличающееся от предыдущих правительств, за последние 10 лет, когда в мире возросла неопределенность, она стала менее предсказуемой, миру и стабильности угрожают кризисы и конфликты в различных регионах, особенно на Ближнем Востоке, имеющем большое геополитическое значение, усиливается политическое и экономическое противостояние сил на разных уровнях, расширяется геополитическая конкуренция, меняются многосторонние и общечеловеческие ценности. В статье, наряду с факторами, влияющими на трансформацию внешней политики Турции, рассматриваются теоретические основы этой политики в контексте структурного реализма и неоклассического реализма, а также влияние процессов и событий, происходящих в мире и регионе, и смены геополитических сил на возвращение Турции к политике реалполитик.

**Ключевые слова:** *Турция, внешняя политика, структурный реализм, геополитические интересы, политика реалполитик.*